Ədəbiyyat QƏZETİ

# Yədulla AĞAZADƏ-75



Hörmətli Yədulla müəllim!

Sizi - tanınmış ədəbiyyatşünas alim və yazıçı-publisisti 75 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1 iyul 1950-ci ildə fəhlə ailəsində anadan olmusunuz. Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) filologiya fakültəsini bitirdikdən sonra uzun illər Lənkəran rayonunun ümumtəhsil məktəblərində müəllim, məktəb direktoru vəzifələrində işləmisiniz. 1992-ci ildən hal-hazıra kimi Lənkəran Dövlət Universitetində çalışırsınız. Sıravi müəllimlikdən professora qədər şərəfli alim ömrü yaşamısınız.

Siz ədəbi-bədii yaradıcılığa ötən əsrin səksəninci illərindən başlamısınız. İlk qələm təcrübələri olan ədəbi-tənqidi məqalələriniz, həmçinin satirik hekayə və esseləriniz yerli və respublika mətbuatında oxuculara təqdim olunmuşdur.

1998-ci ildə "Teymur bəy Bayraməlibəyovun folklorşünaslıq fəaliyyəti" mövzusunda namizədlik, 2013-cü ildə isə "Azərbaycan ədəbiyyatında satirik poeziyanın təşəkkülü və inkişafı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmisiniz. Elmi əsərləriniz respublikada, eləcə də bir çox xarici ölkələrdə çap olunmuş, müxtəlif illərdə nəşr olunan "Qəhrəmanlığa bərabər ziyalılıq" (1999), "Teymur bəy Bayraməlibəyov və folklor" (2003), "Azərbaycan poeziyasında satira" (2010), "Müasir Azərbaycan poeziyasında Sabir satira ənənələri" (2013), "Müasir ədəbi proses və satirik poeziya" (2016) adlı monoqrafiyalarınız, "Azərbaycan ədəbiyyatı tarixi" (qədim və orta əsrlər) (2018) adlı dərs vəsaitiniz elmi və ədəbi ictimaiyyətə yaxşı tanışdır. Lənkəran ədəbi mühitinin inkişafında ciddi səylər göstərmisiniz. Doxsanıncı illərin əvvəllərində Hacı Mirhaşım Talışlı Müsafirlə birlikdə tarixi "Füvcül-füsəha" ədəbi məclisinin yenidən təşkilində, məclisin "Şəm" bülleteninin işıq üzü görməsində xidmətləriniz olmuşdur.

Ədəbi-tənqidi fəaliyyətiniz həm klassik ədəbiyyatımız, həm də müasir ədəbi proseslə bağlıdır. Lənkəran bölgəsində yazıb-yaradan ədəbi qüvvələrin təbliğində, əsərlərinin təhlilində xüsusi səylər göstərirsiniz. "Həyatı öyrəndiyim illər" (2008), "Tarixləşən-əbədiləşən ustad" (2015), "Ömür kitabının səhifələri" (2021), "Pirlər bulağından novatorluğa" (2024) kitablarınız bədii ədəbiyyatımızın, filoloji fikrimizin müxtəlif problemlərinə həsr olunmuşdur.

Qabaqcıl elmi-pedaqoji fəaliyyətinizə görə bir neçə dəfə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olmuş, 2021-ci ildən "Əməkdar müəllim" fəxri adını daşıyırsınız.

2006-cı ildən Azərbaycan Yazıçılar Birliyinin, 2025-ci ildən Azərbaycan Aşıqlar Birliyinin üzvüsünüz.

Hörmətli Yədulla müəllim!

Sizi bir daha 75 illik yubiley yaşınız münasibətilə təbrik edir, uzun ömür, cansağlığı, yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**